## Abdulla Şaiq - 120



XX əsr milli ədəbiyyatımızın və təhsilimizin inkişafında nasir, dramaturq, maarifçi Abdulla Şaiq Talıbzadənin müstəsna əməyi vardır. Yubileyi Azərbaycanın mədəniyyət bayramına çevrilmiş ədibin anadan olmasının 120 illiyi münasibətilə Opera və Balet Teatrında gecə keçirilmişdir.

Teatrın foyesində 1881-1959-cu illərdə yaşayıb-yaratmış şairin həyat və yaradıcılığını əks etdirən sərgi açılmışdır. Gecəni Mədəniyyət naziri Polad Bülbüloğlu giriş sözü ilə açaraq "Abdulla Şaiqin milli mədəniyyətimizin inkişafındakı xidmətlərindən, ədibin yaradıcılıq irsinin əhəmiyyətindən danışmışdır.

Milli Elmlər Akademiyasının müxbir üzvü, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, professor Yaşar Qarayev Abdulla Şaiqin yaradıcılığı və çoxşaxəli fəaliyyəti barədə məruzə etmişdir. Natiq qeyd etmişdir ki, A.Şaiq ötən əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Onun fəaliyyətinin böyük bir dövrü maarifçiliyin inkişafı ilə bağlı olmuş, o, orta təhsil məktəbləri üçün bir sıra sanballı dərslikləri yaratmışdır. Təsadüfi deyildir ki, Azərbaycanda uşaq ədəbiyyatının, xüsusilə milli uşaq dramaturgiyasının yaranmasında, o cümlədən uşaq teatrının təşəkkülü və inkişafında A.Şaiqin misilsiz xidmətləri olmuşdur.

Abdulla Şaiqin oğlu, akademik Kamal Talıbzadə çıxış edərək atasının yaradıcılığının və xatirəsinin yüksək qiymətləndirilməsinə görə respublika prezidenti cənab Heydər Əliyevə, yubiley gecəsinin bütün iştirakçılarına dərin təşəkkürünü bildirmişdir.

Milli Dram Teatrının aktyorları Laləzar Mustafayeva və Nurəddin Mehdixanlının aparıcılığı ilə keçən bədii hissədə tanınmış sənətkarlar çıxış etmişlər.

Ədibin "Bir saatlıq xəlifə" və "Fitnə" əsərlərindən fraqmentlər göstərilmişdir.

## Rəsul Rza - 90



Respublika sarayında Azərbaycanın görkəmli şairi Rəsul Rzanın 90 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə prezident Heydər Əliyev iştirak edib. Tədbirdə çıxış edən baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev, şairin tədqiqatçısı Gülrux Əlibəyli, xalq şairləri Fikrət Qoca, Vaqif Səmədoğlu, professor Rafael Hüseynov Rəsul Rza yaradıcılığının məziyyətlərindən, onun vətənpərvər şair və ictimai xadim kimi fəaliyyətindən danışmış, Rəsul Rza haqqında xatirələrini söyləmişlər. Şairin oğlu xalq yazıçısı Anar Azərbaycan prezidentinin daima elmə, incəsənətə və ədəbiyyata qayğı göstərdiyini vurğulayaraq Rəsul Rzanın yubileyinin dövlət səviyyəsində qeyd olunmasına görə ona təşəkkür etmişdir.

## Aşıq Ələsgər - 175

Azərbaycan Dövlət Musiqili Komediya Teatrında Aşıq Ələsgərin anadan olmasının 175 illiyinə həsr olunmuş yubiley gecəsini Mədəniyyət naziri Polad Bülbüloğlu açdı və Ələsgəri aşıq sənətinin böyük ustadlarından biri kimi dəyərləndirdi. O bildirdi ki, Aşıq Ələsgər zəngin yaradıcılığı, əvəzsiz ifadə tərzi sayəsində aşıq sənətində özünəməxsus yer tutub. Daha sonra gecənin aparıcılıq missiyası şair Zəlimxan Yaquba həvalə edildi.



Yalnız aparıcılıqla kifayət-